*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitinin ELMİ ƏSƏRLƏRİ № 30, 2021*
*УЧЁНЫЕ ЗАПИСКИ Азербайджанского Государственного Университета Культуры и Искусств № 30, 2021*
*SCIENTIFIC NEWS of Azerbaijan State University of Art and Culture № 30, 2021*

**UOT 745**

**Emiliya Yanakiyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Doktorant**
**E-mail: emilio_2019@inbox.ru**

# AZƏRBAYCAN MUSİQİ ALƏTLƏRİNİN DEKORATİV HƏLLİNDƏ HƏNDƏSİ ELEMENTLƏRİN İSTİFADƏSİ

**Xülasə:** Məqalədə milli musiqi alətlərinin bədii dekorativ həllində istifadə olunmuş həndəsi ornamentlərin istifadə xüsusiyyətləri haqqında konkret məlumat verilmişdir. Bunun üçün müxtəlif muzeylərin kolleksiyasına daxil olan, görkəmli alim Məcnun Kərimovun "Azərbaycan Musiqi alətləri" kitabında verilmiş nümunələr üzərindəki təhlillər mövzunun maraq dairəsini artırmışdır.

**Açar sözlər:** həndəsi ornamentlər, dekorativ həll, musiqi alətləri, kolleksiya, muzey

Milli ornamentallıq maddi mədəniyyətimizi əks etdirən bütün sahələrdə özünü göstərməkdədir. Lakin musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərində özünü göstərən bu naxış elementlərinə az sayda rast gəlinir. Əsasən özünün forması və funksional quruluşu ilə diqqət çəkən, xalqın milli dəyərlərini ifadə edən bu alətlər üzərində həndəsi, nəbati, hətta süjetli təsvirlərə rast gəlmək olar.

Həndəsi naxışlarla bəzədilmiş alətlər, əsasən, sədəfin parlaq cilasında özünün estetikliyini meydana çıxarır. Nümunə olaraq ağacdan hazırlanmış balabanlardan birinin üzərindəki naxışlanma xüsusiyyətinə diqqət yetirdikdə burada uzunsov üçbucaqların olması diqqəti çəkir. Bəzək elementləri taxtanın səthi üzərindəki faktura əsasında həyata keçirilmişdir. Dəliklər arasında haşiyələnmiş zonalar yuxarıdan aşağıya doğru eyni tərzdə davam etdirilmişdir. Həmin arakəsmə rolunu icra edən zolaqlar qəhvəyi tonun üzərində açıq sadə nöqtələrin vasitəsilə həll edilmişdir. Hər bir hissədəki həndəsi elementlər bir böyük, bir kiçik olmaqla bir-birini təkrarlayır. Eyni zamanda, onların yuxarı hissədə üzü aşağı, aşağı hissədə isə üzü yuxarı olması da güzgü simmetriyasını meydana çıxarmışdır.

Balabanın yuxarı qismində də nöqtə və paxlava kimi düzbucaqlılardan istifadə edilmişdir. Düzbucaqlıların üzərində kiçik nöqtələrin verilməsi ilə həll edilmiş naxış elementləri bütün hissə boyu onu əhatələnməkdədir. Bütün bəzəklər balabanın tünd yerliyi üzərində açıq ağac rəngi ilə ifadə edilərək onun estetik tərəflərini canlandırır.

Tarixi çox qədimə uzanan zurnalar da bir çox hallarda üzərlərinə vurulmuş ornamental xüsusiyyətləri ilə diqqəti cəlb edir. Bunların arasında Azərbaycan

Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunan iki ədəd zurnanın bədii tərtibatında istifadə olunmuş həndəsi formaların zövqlə həyata keçdiyini qeyd etmək olar.

Birinci zurnanın üzərindəki naxışlama onun aşağı hissəsində verilmişdir. Dəliklərdən sonra verilmiş sadə qabarıq haşiyədən sonra gələn bəzəklər nəbati elementlərin həndəsiləşdirilmiş formasında həll edilmişdir. Güzgü simmetriyası ilə yaradılmış aşağı və yuxarı hissələr əyri xətlərdən yaranma xonça elementini xatırlatmaqdadır ki, bundan xalça kimi məmulatların üzərində də tez-tez rast gəlinir. Daxildə verilmiş dairənin qabarıq çıxışları bütün ətraf hissələrin daha aydın görünməsinə imkan yaradır. Alətin aşağı qismində də həmin qabarıq dairələrdən istifadə edilmişdir. Lakin burada nəbati naxışların həlli daha çox diqqəti cəlb etməklə yanaşı, yuxarı hissənin həndəsiləşdirilmiş naxışları ilə estetik ifadəlilik yaradır.

Digər zurnanın bədii ifadəsində isə sırf həndəsi naxışların bir forması üzrə düzülüşü onun bədii dekorativ həllinə mükəmməllik bəxş etmişdir. Belə ki, qeyd edilən alətin yuxarı qismi ağ rəngdə olmaqla əsas hissənin tünd ağac materialı ilə təzadlı görüntünü meydana çıxardır. Burada dəliklər də alətin üzərində naxışlarla bərabər bəzək elementlərinin iştirakçısına çevrilmişdir. Enliləşmiş sona doğru olan qisim üç hissədən ibarət sadə xətti zolaqla haşiyələnmişdir. Hər bir hissədə isə bəzəklər eyni formada təkrarlansa da, onların ölçüləri haşiyənin miqyasına görə daha böyük ölçülərə doğru artmağa başlamışdır. Rombların ardıcıl sistemli düzülüşündən yaranan bu ifadəli görüntü ağ çalarlarla həyata keçirilmişdir.

Müasir dövrümüzdə belə sənətkarlar tərəfindən həyata keçirilən musiqi alətlərinin forması həm onların qədim kökə bağlılığını qoruyub saxlayır, həm də üzərində yeni ornamental bəzəklərlə zənginləşdirməyə xidmət edirlər. Bunlardan 1978-ci ildə həyata keçirilmiş sənturun (müəllif: M.Kərimov) forması diqqəti cəlb edir. Müxtəlif formada olan sənturlar bir-birlərindən əsasən üzərindəki naxışlama ilə fərqlənirlər. Qeyd edilən alətin ön hissəsində verilmiş ornamental həll altıbucaqların yan-yana düzülüşü ilə həll edilmişdir. Bu altıbucaqlıların özünün də altı dəfə təkrarlanması əsərin bədii ifadəliyini yüksəltmişdir. Məsələn, eyni müəllifin 1979-cu ildə həyata keçirdiyi digər bir səntura diqqət etdikdə onun eyni formada olan quruluşuna baxmayaraq, üzərindəki naxışlama alətlər arasındakı fərqi izah edir. İkinci musiqi alətində rəssam quş və nəbati detalları bir yerə gətirərək mürəkkəb kompozisiya quruluşu yaratmışdır. Hər iki alətin naxışlanması haqqında onu qeyd etmək olar rəssam burada sadəcə bəzəklərin yaradılması ilə kifayətlənməmiş, onların mənalı təsir bağışlaması üçün də cəhd göstərmişdir.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunan XX əsrin əvvəllərinə aid edilmiş sədəflə işlənmiş tarın görünüşü xüsusi zövqün ifadəsi kimi özünü göstərməkdədir. Qeyd edilən nümunədə həndəsi elementlər nəbati detallarla bərabər verilmişdir. Tarın kiçik çanağında həndəsiləşdirilmiş nəbati

elementlərin istifadəsi yarımdairə kimi yuxarıya doğru verilmişdir. Onun sadə haşiyə zolağının daxilində kiçik açıq üçbucaqlar yerləşdirilmişdir ki, bunlar da bir qədər kiçik ləçəkləri xatırladır. Mərkəzdə verilmiş iri ulduzun daxilində də nöqtəli ifadələr onu daha da zənginləşdirmişdir.

Lakin əsas olaraq qeyd edilən musiqi alətinin haşiyəsində verilmiş gözəl, zövqlü, sədəfli işləmənin həndəsi ornamentlərlə yerinə yetirilməsidir ki, rəssam burada onun dekorativ həllində yüksək məharət nümayiş etdirmişdir. Burada iki zolaqda verilmiş ulduzlar öz oxu üzərində bölünərək sanki bütün naxışların sistemli düzülüşünə imkan yaradır.

Tarın sap hissəsində rəssam ornamental naxış elementlərini də sədəflə yerinə yetirmişdir. Burada düz oxvari uzunsov detalın üzərində də həmin ulduz elementinin istifadəsi onun bədii dekorativ həllini estetik cəhətdən əhəmiyyətli etmişdir.

Haşiyə hissəsinin gözəl həndəsi naxışlarla sədəfdən olan işləməsi Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunan XX əsrin əvvəllərinə aid olan digər bir nümunədə də özünü göstərməkdədir. Burada da naxışlar bir qədər aşağı qisimdən oxvari ayrılaraq onların daha harmonik görünməsinə imkan yaradır. Sədəfin səthinin məqsədəuyğun qoyuluşu ilə yaradılmış kölgəli ifadələr üçbucaqların daha qabarıq, həcmli görünməsinə imkan yaradır. Yuxarı hissədə yarımdairələr və üçbucaqların istifadəsi bu təsiri daha da gücləndirir. Tarın çanaq hissəsində verilmiş gül və çiçəklərin real və rəngli təsviri bir-biri ilə təzad təşkil edən elementlər arasında haşiyə və əsas sahə hissələrini ayırd edir.

Azərbaycan Tarix Muzeyində qorunan üç və beş simli kamançaların üzərindəki naxış elementləri daha zəngin formada həyata keçirilmişdir.

Üç simli olan birinci kamançanın çanaq hissəsində ağacın tünd yerliyi üzərində qızılıya çalan rəngin ifadəsində verilmiş həndəsi naxışlar ardıcıl zolaqlarla bəzək detallarının sıralanmasında həyata keçirilmişdir. Birinci hissədə qəhvəyi və sarı tonun tərs düzülüşü ilə üçbucaq naxışları üç sırada meydana gəlmişdir. Daha sonrakı hissədəki üçkünc formaların simmetrik düzülüşü isə şaquli formada bütün əhatəni haşiyələyir. Daha sonra kiçik dairələrin aralarında dörd ədəd nöqtənin verilməsi ilə zolaqlar daha da dolğunlaşdırılmışdır. Ondan daha sonrakı, önə daha yaxın olan qisimdəki elementlər daha çox memarlıqda istifadə olunan elementləri xatırlatmaqdadır.

Musiqi alətinin qol hissəsi də xətti elementlərin istifadəsində sadə formada həll edilmişdir. Bu sadəlik qolun yuxarı qismindəki sıx olan üçbucaq, dördbucaqlardan ibarət elementlərin ifadəsini aydın göstərmək məqsədi daşıyır. Həmin elementlər çanaq hissədəki naxışlarla eynilik təşkil edir. Bütün bunlar qeyd edildiyi kimi, tarın zəngin dekorativ həllindən xəbər verir.

İkinci beşsimli tarın bədii tərtibatında istifadə edilmiş bəzək detalları daha aralıqlarla verilsə də olduqca zövqlə yerinə yetirilmişdir. Qol hissədə paxlava

şəkilli detallar ardıcıllıqla sıralanmışdır. Çanaq hissədəki elementlər yarımrombları tərs düzülüşü ilə ara zolaqları meydana gətirmişdilər. Əsas hissələrdə olan elementlər həndəsiləşdirilmiş nəbati detallarla ifadə edilmişdir.

Yenə də yuxarıda qeyd edilən muzeyin ekspozisiyasına daxil edilən XIX əsrə aid sədəflə işlənmiş kamançanın naxış elementləri onun daha zəngin, zövqlü formasını təqdim edir. Kamançanın çanağında üçbucaqların üstündə nöqtələr verilmişdir. Aşağıda kvadratların sistemli sıralanması həm də sanki xalçanın bəzək elementlərindən istifadə olunan haşiyə zolağı və əsas hissənin bədii dekorativliyini ifadə edir. Ucu şiş olan elementlər Şərq memarlığında istifadə olunmuş detalların təsirlərini özündə əks etdirir. Burada bütün detalların həndəsi detallardan istifadəsi, formaların müxtəlif formalarla ifadə edilməsi tarın özünəməxsus fərdi üslubunu meydana çıxarmışdır.

Əsrlərlə öz formasını, quruluşunu, funksional dəyərlərini dəyişən musiqi alətlərimizin üzərindəki bəzək elementləri digər naxışlarla yanaşı həndəsi formalı bəzəklərin də milli köklərə bağlılığını əks etdirməkdədir.

## Ədəbiyyat siyahısı:

1. Kərimov M. Azərbaycan Musiqi alətləri. “Yeni nəsil” nəşriyyatı, Bakı, 2009;
2. http://unesco.mfa.gov.az/content/70
3. http://unesco.preslib.az/az/page/tIPJTei4vq

**Емилия Янакиева**

## Использование геометрических элементов в декоративном решении Азербайджанских музыкальных инструментов

**Резюме:** В статье приводится конкретная информация об особенностях использования геометрического орнамента в художественно-декоративном решении национальных музыкальных инструментов. В книге выдающегося ученого Меджнуна Каримова «Азербайджанские музыкальные инструменты», которая входит в собрания различных музеев, представленный с этой целью анализ образцов, повысил интерес к предмету.

**Ключевые слова:** геометрические орнаменты, декоративное решение, музыкальные инструменты, коллекция, музей.

**Emiliya Yanakiyeva**

## Use of geometric elements in the decorative solution of Azerbaijani musical instruments

**Summary**: The article provides specific information about the features of the use of geometric ornaments used in the artistic and decorative solution of national musical instruments. For this purpose, the analysis of the samples given in the book "Azerbaijani Musical Instruments" by the prominent scientist Majnun Kerimov, which is included in the collection of various museums, has increased the scope of interest in the subject.

**Key words**: geometric ornaments, decorative solution, musical instruments, collection, museum

**Məqalənin redaksiyaya daxil olma tarixi: 27. 08. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**